№ 1 (17) 2023

*Leyla Qabil qızı Abasova*
*Bakı Dövlət Universiteti*
*İnformasiya və sənəd menecmenti fakültəsi*
*Redaksiya-nəşriyyat işi kafedrasının baş müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru*

*Konul Şaiq qızı Qədirova*
*Bakı Dövlət Universiteti İnformasiya və sənəd menecmenti fakültəsinin tələbəsi*

# "XAN NƏŞRİYYATI"NIN ÇAP MƏHSULLARININ TƏHLİLİ

***Xülasə:*** *Məqalədə respublikamızda özəl nəşriyyat sistemində xüsusi yeri olan "XAN Nəşriyyatı"nın yaranmasından söhbət açılır. Eyni zamanda qeyd olunur ki, "XAN Nəşriyyatı" bu gün ölkəmizdə geniş fəaliyyət göstərən, çap etdiyi nəşrlərin mövzusu və məzmunu ilə oxucuların rəğbətini qazanmış özəl nəşriyyatlardan biridir. Aparılan tədqiqatlar nəticəsində bəlli olur ki, nəşriyyat Rahil Zülfəliyev tərəfindən 2014-cü ildə təsis edilmişdir. "XAN nəşriyyatı" Hədəf Şirkətlər Qrupuna daxil olan özəl şirkətdir. Nəşriyyatın direktoru tərcüməçi yazıçı, şair Səbuhi Şahmursoy, baş redaktoru Cavid Qədirdir. Fəaliyyətə başladığı vaxtdan bu günə kimi Azərbaycan kitab bazarına keyfiyyətli ədəbi nümunələrlə bərabər müxtəlif elmi-publisistik, şəxsi inkişaf və motivasiya kitabları ilə daxil olmağı bacarıb. Ümumiyyətlə, özəl nəşriyyat olan "XAN Nəşriyyatı" öz uğurlu fəaliyyəti ilə digər nəşriyyatlardan seçilir.*

***Açar sözlər:*** *"XAN Nəşriyyatı", poliqrafiya, nəşriyyat, özəl nəşriyyat sistemi, kitab, seriya.*

**Leyla Gabil qizi Abasova**
**Konul Shaig gizi Gadirova**

## Analysis of "KHAN Publishing" printed products

***Abstract:*** *The article is about the establishment of "KHAN publishing house" which has a special place in the private publishing system of our republic. At the same time, it is noted that "Khan publishing house" is one of the private publishing houses that is widely active in our country today and has got the sympathy of readers with the subject and content of its published publications. As a result of the conducted research, it is clear that the publishing house was founded by Rahil Zulfaliyev in 2014. "KHAN Publishing House" is included as private company in the Group of Hedef Companies.*

*The director of the publishing house is a translator writer, poet Sabuhi Shahmursoy, chief editor is Javid Gadir.*

*From the time the publishing house began its activity until today, it has managed to enter the Azerbaijan book market with quality literary examples as well as various scientific - publicist, personal - development and motivational books. In general, the private publishing house "KHAN Publishing House" has its own successful activity differs from other publishing houses.*

***Key words:*** *"KHAN Publishing House", printing, publishing, private publishing system, book, series.*

**Лейла Габил кызы Абасова**
**Конуль Шаиг кызы Гадирова**

## Анализ печатной продукции "Издательство ХАН"

***Резюме:*** *В статье рассказывается о создании «Издательства ХАН», которое занимает особое место в частной издательской системе нашей республики. В то же время отмечается, что «Издательство ХАН» является одним из частных издательств, активно работающих сегодня в нашей стране и завоевавших симпатии читателей тематикой и содержанием издаваемых им изданий. В результате проведенного исследования видно, что издательство было основано Рахилем Зульфалиевым в 2014 году. «Издательства ХАН» входит как частная компания в группу компаний «Хедеф».*

*Директор издательства - писатель-переводчик, поэт Сабухи Шахмурсой, главный редактор - Джавид Гадир.*

*С момента начала своей деятельности до сегодняшнего дня издательство сумело выйти на азербайджанский книжный рынок с качественными литературными образцами, а также различными научно-публицистическими, личностно-развивающими и мотивационными книгами. В целом, частное издательство «Издательство Хан» своей успешной деятельностью отличается от других издательств.*

***Ключевые слова:*** *«Издательство ХАН», полиграфия, издательство, частная издательская система, книга, серия.*

Ölkəmizdə kitab nəşrinin yaranması və formalaşmasının böyük tarixi var. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi-ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbəfə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram" [1].





Zahirən ən adi və sadə görünən kitab əhəmiyyətinə və dəyərinə görə əvəzsizdir. Kitab cəmiyyətdə, ictimai inkişafda meydana gələn ən böyük xarüqələrdən biri olub, insanın yüksək elmi və ədəbi yaradıcılığıdır. Dünya mədəniyyətinin yaranmasında və inkişafında misilsiz rol oynayan kitab bəşəriyyətin mədəni inkişafında yeni və yüksək pillədir. Kitab çapının ixtirası mədəniyyətin, elm və texnikanın inkişafında böyük və həlledici rol oynadı. Nəticədə kitab çox sürətlə inkişaf etdi, bəşəriyyətin tərəqqipərvər və sadə adamlarını şair və yazıçılarını alim və mütəfəkkirlərini dövlət başçılarını düşündürürdü, bir sözlə, hamının diqqətini özünə cəlb etdi. Kitab kamilləşmək, inkişaf edib və mənəvi cəhətdən zənginləşmək üçün ən qiymətli incidir. Ayrı-ayrı dövrlərdə, müxtəlif quruluşlarda nəşriyyat və mətbəələrin fəaliyyətləri daha çox kitabın istehsalı ilə bağlı olmuşdur. Doğrudur, quruluşun müxtəlifliyindən aslı olmayaraq çox hallarda nəşriyyatların böyük əksəriyyəti öz istehsal etdikləri kitab məhsulunun öyrənilməsinin yayımına maraq göstərmişlər. Bütün dövrlədə xüsusilə indiki şəraitdə kitabın cəmiyyətdəki rolu və əhəmiyyəti çox artmışdır. Bu kitabın müxtəlif məlumatı, biliyi, elmi, dünyagörüşü ictimai-siyasi problemləri və s. özündə əks etdirməsi ilə əlaqədardır. Kitabın bu xüsusiyyəti onun öyrənilməsini, təbliğini və yayılmasını qarşıya qoyur. Kütləvi məlumat vasitələrindən biri kimi kitabın istifadə edilməsi daha da genişlənir [3, s. 3-6].

Müasir dövrdə respublika nəşriyyat sistemində əsas yeri özəl nəşriyyatlar tutur. Kitab nəşrinin böyük hissəsi də özəl nəşriyyatların payına düşür. Hazırda ölkəmizdə geniş fəaliyyət göstərən, çap etdiyi nəşrlərin mövzusu və məzmunu ilə oxucuların rəğbətini qazanmış özəl nəşriyyatlardan biri də "XAN Nəşriyyatı"dır. "XAN Nəşriyyatı" 2014-cü ildə Rahil Zülfəli oğlu Zülfəliyev tərəfindən təsis edilmişdir. "XAN Nəşriyyatı" Hədəf Şirkətlər Qrupuna daxil olan özəl şirkətdir. Nəşriyyatın direktoru tərcüməçi, yazıçı, şair Səbuhi Şahmursoy, baş redaktoru Cavid Qədirdir. Fəaliyyətə başladığı vaxtdan bu günə kimi Azərbaycan kitab bazarına keyfiyyətli ədəbi nümunələrlə bərabər müxtəlif elmi-publisistik, şəxsi inkişaf və motivasiya kitabları ilə daxil olmağı bacarmışdır. 2017-ci ildən isə "XAN Nəşriyyatı"nın öz mətbəəsi də yaradılmışdır. Mətbəənin direktoru Rahil Zülfəliyevdir. Burada əsasən alman markalı çap avadanlıqlarından istifadə edilir.

Müxtəlif illərdə yerli və beynəlxalq kitab sərgilərində müvəffəqiyyətlə iştirak edən "XAN Nəşriyyatı" "Fəal iştiraka görə", "Uğurlu iştiraka görə" və s. diplomlarla təltif olunmuşdur.

Nəşriyyatda müxtəlif mövzularda kitablar çap olunur. Bütövlükdə çap repertuarı müxtəlif çeşidlidir. Nəşriyyat əsasən milli ədəbiyyat, tərcümə ədəbiyyatı, klassik ədəbiyyat, çağdaş ədəbiyyatı nəşri sahəsində ixtisaslaşmışdır. Ümumilikdə, "XAN Nəşriyyatı"nda "Milli ədəbiyyat", "Çağdaş ədəbiyyatı", "Tərcümə ədəbiyyatı", "Xatirə ədəbiyyatı", "İlk kitab", "Məşhurlar", "Yerli klassika", "Xarici klassika", "Azərbaycan ədəbiyyatı rusca" adlı kitab

silsilələri çap olunur. Nəşriyyatın şəxsi inkişaf kitabları, dedektiv, motivasiya kitabları ilə yanaşı, eyni zamanda uşaq ədəbiyyatı nəşr edən Bala Bilgə Nəşrləri adlı alt markası da var.

"XAN Nəşriyyatı" bir sıra seriyalı nəşrlər ilə mühim layihələrə imza atmış, seriyalarla kitab nəşri sahəsində uğurlu nəticələr əldə etmişdir. Seriyalı nəşrlər sırasında "Azərbaycan ədəbiyyatı rusca", "Məşhurlar", "Gümüş dövrü" (Xarici klassika), "Qızıl dövrü" (Yerli klassika), "Biz" (Cağdaş yerli ədəbiyyat), "Onlar" (Cağdaş xarici ədəbiyyat), "Şəxsi inkişaf", "Xatirə ədəbiyyatı"nı qeyd edə bilərik.

"XAN Nəşriyyatı"nın "Milli ədəbiyyat" silsiləsində vaxtilə ədəbiyyatımızda dərin iz qoymuş müəlliflərin əsərləri nəşr olunur. Bu silsilədə Salam Qədirzadə, Əzizə Cəfərzadə və İsa Muğanna, eləcə də klassiklərimizdən – Yusif Vəzir Çəmənzəminli, Məmməd Səid Ordubadi, Pənahi Makulu, Həsən Seyidbəyli, Qulamhüseyn Səidi, Mirzə Əbdürrəhim Talıbov və s. müəlliflərin kitablarını nəşr edir. Çağdaş ədəbiyyatı silsiləsində müasir dövrdə yazıb-yaratmış müəlliflərin kitabları nəşr olunur.

"XAN Nəşriyyatı" tərcümə ədəbiyyatı nəşri sahəsində səmərəli fəaliyyətini uğurla davam etdirməkdədir. Tərcümə ədəbiyyatı silsiləsində dünyada məşhur olan müəlliflərin yaradıcılığındakı əsərlər, fərqli janrlı kitablar nəşr olunur. "XAN Nəşriyyatı" Ceyms Rollins, Dmirti Qluxovski, Orhan Pamuk, Mixail Bakunin, Artur Konan Doyl, Edqar Allan Po, Qriqoriy Petrov, Teodor Drayzer, Oljas Süleymenov, Svetlana Alekseyeviç, İtalo Kalvino, Patrik Modiano, Ziqmund Freyd, Cek London, Fridrix Nitsşe, Piter Ceyms və b. müəlliflərin əsərlərinə müraciət edərək keyfiyyətli tərcümə kitablarını ərsəyə gətirir. Bundan başqa Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyinin "Türk ədəbiyyatının xaricdə tanıdılması" layihəsinin dəstəyi ilə çap olunan kitablar da "Tərcümə ədəbiyyatı" silsiləsinə aiddir. Bu layihə çərçivəsində 30-a yaxın kitab nəşr olunmuşdur.

"XAN Nəşriyyatı"nın "İlk kitab" silsiləsi ilə bu günə kimi öyrənilməyən, kitabları çap edilməyən gənc yazarların əsərlərini toplayır, çap edərək yayılmasına çalışırlar. Silsilə gənc yazarlara dəstək məqsədilə yaradılmışdır. Qeyd etmək lazımdır ki, bu təşəbbüs "XAN Nəşriyyatı"nın fəaliyyətində xüsusi əhəmiyyət kəsb edir. Silsilədəki kitablar roman və hekayələr toplusundan ibarətdir. Silsilədə çap olunmuş kitablar sırasında, Xanım Anela "Amarna günahları", Tural Əzimzadə "Omeqa", Ələsgər Əhməd "Bir ovuc suda", Tural Cəfərzadə "Yuxu" və s. qeyd edə bilərik.

"Məşhurlar" seriyası qeyri-bədii ədəbiyyat kitablarının çap olunduğu kitablar toplusudur. Seriya fərqli mövzulu kitablarla zəngindir. "Məşhurlar" seriyasında məşhur insanların həyatı, məşhur filmlər, ulduzlar, dünya tarixində öz yeri olan məktublar haqqında kitablar nəşr olunur. Bu seriyada 4 kitab işıq üzü görmüşdür: "Aforizmlər", "Şah Rux Xan", "Məktublar", "Türk sərkərdələri".





"Aforizmlər" dünyanın məşhur elm və ədəbiyyat insanlarının fərqli zamanlarda söylədikləri, qeydə aldıqları fikirlər toplu halında nəşr olunur, yeni nəslə çatdırılır.

"Azərbaycan ədəbiyyatı rusca" seriyası ölkəmizdə oxucuların önəm verdiyi kitabların rus dilinə tərcümə olunması məqsədilə yaradılmışdır. Bu seriyanın yaradılması ədəbiyyatımızı rusca oxumaq istəyənlər üçün mühim bir addımdır. Bu seriyada 8 kitab çap olunmuşdur.

Qeyri-ədəbi nümunələr sırasında motivasiya və şəxsi inkişaf müəlliflərdən Co Novarro, Martin Karlins, Entoni Robinz, Piter Kouter, Brian Treysi, Andrey Kosenko, Ceylan Mumoğlu və b. kimi müəlliflərin kitablarının nəşri də "XAN Nəşriyyatı" tərəfindən həyata keçirilmişdir.

"XAN Nəşriyyatı"nda çap olunmuş klassik əsərlər "Yerli klassika", "Xarici kllasika" silsilələrindən ibarətdir. Bu silsilədə yerli və dünya klassiklərinin əsərləri çap edilərək oxucuların ixtiyarına verilir.

Nəşriyyat tematik planında tarixi mövzularda olan kitabların nəşrinə də önəm verir.

"XAN Nəşriyyatı"nın çap məhsulları arasında maraqlı nəşrlərdən biri milli ədəbiyyat silsiləsində nəşr olunmuş İmran Qasımov, Həsən Seyidbəylinin "Uzaq sahillərdə" romanıdır. 2019-cu ildə 308 səhifə həcmində və 500 tirajla (70×100 formatında) işıq üzü görən bu kitabın redaktoru Səbuhi Şahmursoy, naşiri Müşfiq Xan, korrektoru Dürdanə Ramazanlı, texniki redaktoru Bəxti Yar, dizayn və qrafika Gülnar Hacıyevaya məxsusdur. Kitab Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatının 1961-ci ildə nəşr etdiyi "Uzaq sahillərdə" kitabının tam mətni əsasında nəşrə hazırlanmışdır. Kitabın annotasiyasında oxuyuruq: "Yazıçı İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə" romanı Azərbaycan xalqının igid oğlu, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin – "Mixaylo"nun mübarizəsinə, çətin sınaqlardan keçərək hitlerçilərin arxasında göstərdiyi xariqüladə qəhrəmanlıqlarına həsr edilib. Oxucu bu kitabda mərd Azərbaycanlı oğlunun igidliklərlə dolu həyatı ilə tanış olacaq. Mehdi Hüseynzadə hitlerçilərə qarşı mübarizəni davam etdirmiş çətin döyüş tapşırıqlarını yerinə yetirmişdir [6].

"XAN Nəşriyyatı"nın "Tərcümə ədəbiyyatı" silsiləsinə daxil olan mühim kitablardan biri də ümumtürk xalqlarının ortaq abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanıdır. Kitabı türk dilindən Azərbaycan dilinə Müşfiq Xan çevirmişdir. Kitabın müəllifi Yunis Zeyrək dastanı yenidən işləmiş, oxuculara sadələşdirmiş şəkildə təqdim etmişdir. Bu kitab 2021-ci ildə 176 səhifə həcmində, 500 tirajla (70x1000 formatda) çap edilmişdir. Kitabın naşiri Səbuhi Şahmursoy, redaktoru Cavid Qədir, korrektoru Səbinə Abdullayeva, qrafika dizayneri Tamerlan İsmayılzadədir [8].

Kitabın strukturu – "Yunis Zeyrək haqqında", Müəllifin yazdığı Ön söz, Müqəddimə, "Eposa daxil olan 12 boy", "Lüğət" şəklində tərtib olunmuşdur.

Kitabın müqəddiməsində Dədə Qorqud tərəfindən deyilən atalar sözləri verilmişdir [8, s.20].

"XAN Nəşriyyatı" "Məşhurlar" seriyası adı altında qeyri-bədii ədəbiyyat kitabları çap edərək oxucuların ixtiyarına verir. Layihənin rəhbəri Şəmil Sadiq, layihə kordinatoru və naşiri Səbuhi Şahmursoydur. "Türk sərkərdələri" "Xan nəşriyyatı"nın "Məşhurlar" seriyasında çap olunmuş 4-cü kitabıdır. Oxucular kitabda türk xalqlarının tarixində öz sözünü demiş məşhur Türk Sərkərdələri – Alp Ər Tonqa Tomris, Mete, Atilla, Bilgə Xaqan haqqında məlumatlar əldə edə bilər. Kitab 2022-ci ildə 216 səhifə həcmində, 500 tirajla (60×84 formatında) işıq üzü görüb. Türk sərkərdələri kitabının redaktoru Cavid Qədir, korrektoru Səbinə Abdullayeva, texniki redaktoru Aytən Paşayeva, üz qabığının dizaynı Zülfiyyə Abbasova, rassamı Vasif Səftərov, tərcüməçi Əyyub Qiyasdır. Kitabda illüstrasiyalardan istifadə olunmuş, tarixdə iz qoymuş bu məşhur şəxslərin rəsmləri əks olunmuşdur [4].

Milli mətbuatımızın əsasını qoyan Həsən bəy Zərdabi yazırdı ki, "Yaxşı kitab çox qiymətli xəzinədir". Kitab estetik cəhətdən oxucunun zövqünü oxşamalıdır. Müasir dövrdə, oxucu zövqü tez-tez dəyişir. Tərtibatın yüksək səviyyədə aparılması olduqca mühim əhəmiyyət kəsb edir. Kitabın oxucular tərəfindən rəğbətlə qarşılanması, oxucu auditoriyasında uğur əldə etməsi kitabın tərtibatının düzgün seçilməsi ilə bilavasitə bağlıdır.

"XAN Nəşriyyatı"nın çap məhsullarına nəzər yetirdikdə kitabların yüksək poliqrafik keyfiyyətlə çap olunması, kitabın bütün bölmələri üçün şrift ölçüsünün seçimləri düzgün aparılması, kitablarda annotasiyanın olması, oxuculara kitab haqqında ilkin lazımi məlumatların verilməsi, bədii ədəbiyyata dair çap olunmuş kitabların yumşaq cildlə tərtibi, kitabların asan daşınması, səhifə həcminin eni və uzunluğu seçiminin dəqiqliyi, normaya uyğunluğu, düzgün format seçimi, mütaliə zamanı oxucunu yormaması, rəng seçiminin düzgun olması, oxunma üçün rahat olması, aparatının yüksək səviyyədə qurulması, kitabların üz qabığında mövzuya uyğun dizayn, kitab qiymətlərinin normal, sərfəli qiymətlə bazara çıxarılması, oxuculara çatdırılması bütün bu müsbət cəhətlər səmərəli fəaliyyətini ortaya qoymuş "XAN Nəşriyyatı"nın fəaliyyətində diqqətəlayiqdir. Nəşriyyatın çap məhsullarını təhlil edərkən diqqətimizi çəkən digər bir məsələ isə kitablarda tirajın qeyd edilməməsidir. Bunu nöqsanlı cəhət kimi izah edə bilərik.

"XAN Nəşriyyatı" "Çağdaş ədəbiyyat" silsiləsində müasir yazıçıların kitablarını çap edir. Bu silsilə ilə müntəzəm əməkdaşlıq edən Şəmil Sadiq, Həmid Piriyev, ELgülsel, Əzizə Cəfərzadə, Cəlil Cavanşir, İlqar Fəhmi, Xanəmir Telmanoğlu, Sevinc Elsevər, Rüstəm Behrudi, İlham Tumas, Kanan Hacı və s. müəlliflərin bir çox kitablarının nəşr və yayım hüququ isə məhz "XAN Nəşriyyatı"na məxsusdur. Müşfiq Xan və Şəmil Sadiqin birlikdə yazdıqları "Ümidlərin izi ilə" romanı Xocalı faciəsinə həsr olunmuşdur və Qarabağ mövzusunda yazılmış ilk bestsellerdir. Kitab 2015-ci ildə üçüncü dəfə





"XAN nəşriyyatı"nda 408 səhifə həcmində, 500 tirajla (70×100 formatında) nəşr olunub. Redaktoru Cəlil Cavanşir, korrektoru Rövşən Yerfi, mətn tərtibatçısı Baxtiyar Ələkbərov, qrafika dizaynçısı Teymur Fərzidir.

"XAN Nəşriyyatı"nın uşaq ədəbiyyatını nəşr edən "Balabilgə Nəşrləri" adlı alt markası var. Bu marka ilə nəşr olunmuş kitablardan biri Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunmuş cizgi romanıdır. Kitabda maksimum illüstrasiyalar əsasında böyük qəhrəmanımızın igidliyi, mərdliyi, vətənpərvərliyi kiçik oxuculara çatdırılmışdır [7].

Mübariz İbrahimov 2010-cu il Tərtər istiqamətində gecə saatlarında təkbaşına 1 kilometrlik minalanmış ərazini keçərək, düşmənin çox sayda əsgər və zabitini məhv etmişdir. Daha sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək 5 saat təkbətək döyüşən qəhrəmanımız düşməni ağır itkilərə məruz qoymuş, səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub-saxlanılmasına, müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə Gizir Mübariz Ağakərim oğlu İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir [7, s.56].

Kitabın ilk səhifəsində Milli Qəhrəman Mübariz İbrahimovla vida mərasimində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışından sitat da verilmişdir: "Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir. Şəhidlərimizin valideynlərinə minnətdarlığımı bildirmək istəyirəm ki, onlar Vətən üçün belə qəhrəmanlar böyütmüşlər. Əziz şəhidlərimizin valideynləri, sizin üçün bu aylar çox ağır keçdi. Siz övladlarınızı itirmisiniz. Bundan böyük dərd ola bilməz. Ancaq siz əsl vətəndaş kimi bəyan etmisiniz ki, biz hamımız Vətən uğrunda şəhid olmağa hazırıq. Təki Vətən sağ olsun! Allah bütün şəhidlərimizə rəhmət eləsin! [7].

Kitabın müəllifi filologiya elmləri üzrə fəlsəfə doktoru Şəmil Sadiq, naşiri Səbuhi Şahmursoy, redaktoru Müşfiq Xan, rəssamı Vasif Səftərov, dizayn və qrafika işləri Gülnar Hacıyevaya məxsusdur. Kitab 2020-ci ildə 500 tirajla 64 səhifə həcmində nəşr olunub.

Apardığımız təhlillərdən bəlli olur ki, "XAN Nəşriyyatı" öz kitab repertuarını əhəmiyyətli mövzular üzərində zənginləşdirir. Məsələn, "XAN Nəşriyyatı"nda 2014-2021-ci illər ərzində ad etibarilə cəmi 165 kitab çap edilmişdir. Bunu faktiki materiallar əsasında hazırladığımız diaqramdan da aydın görə bilərik.

*Diaqram 1.*

**2014-2021-ci illər ərzində "XAN Nəşriyyatı"nın çapdan buraxdığı nəşrlərin ad baxımından sayı**




Nəticə olaraq qeyd edək ki, ölkəmizdə fəaliyyət göstərən özəl nəşriyyat sistemində "XAN nəşriyyatı"nın xüsusi yeri vardır. Bu nəşriyyat oxucuların əhəmiyyətli mövzularda kitablarla təmin edilməsində, kitabların keyfyyətli nəşr edilməsində müstəsna rol oynayır. Nəşriyyatın strukturunun tələblərə uyğun yaradılması onun faydalı iş əmsalının, məhsuldarlığının artırılmasına müsbət təsir göstərir.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Milli kitabxanasında miniatür kitabın təqdimat sərgisində çıxışı // "Azərbaycan" qəz., 1995. - 6 iyun.*
2. *Abasova L. "Boz Oğuz" nəşriyyatının yaranması və fəaliyyəti. – Bakı: Aspoliqraf, 2018. -192 s.*
3. *Allahverdiyev B. Kitabşünaslığın əsasları. – Bakı: Uniprint, 2011. –446s.*
4. *Durmuş İ. Türk sərkərdələri. – Bakı: XAN Nəşriyyatı, 2022. – 216 s.*
5. *Xan M. Sadiq Ş. Ümidlərin izi ilə. – Bakı: XAN nəşriyyatı, 2015. – 408 s.*
6. *Qasımov İ. Seyidbəyli H. Uzaq sahillərdə. – Bakı: XAN Nəşriyyatı, 2019. – 308 s.*
7. *Sadiq Ş. Mübariz İbrahimov: Cizgi roman. – Bakı: XAN Nəşriyyatı, 2020. – 64 s.*
8. *Zeyrək Y. Kitabı Dədə Qorqud. – Bakı: XAN Nəşriyyatı, 2021. – 176 s.*